# DƏNİZ

Qəzet 1931-ci ilin aprelindən çıxır

13 fevral 2015-ci il
№ 5-6 (8963)
Qiymәti 38 qәpik

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin qəzeti


Keçən il “Cənub” qaz dəhlizinin təməli qoyulmuşdur. Bu, tarixi hadisədir. Bu layihə bizim uzunmüddətli inkişafımızı daha da sürətləndirəcək. Bu layihə “Əsrin müqaviləsi”nə bərabər olan bir layihədir. Artıq bu layihəni XXI əsrin layihəsi adlandırırlar. Çox simvolik hal ondan ibarətdir ki, məhz 2014-cü il sentyabrın 20-də – “Əsrin müqaviləsi”nin imzalanmasından düz 20 il sonra “Cənub” qaz dəhlizinin təməli qoyulmuşdur. Ulu öndər Heydər Əliyevin neft strategiyasının uğurlu icrası bu gün də təmin edilir. Görün “Əsrin müqaviləsi”ndən sonrakı dövrdə nə qədər işlər görülmüşdür! Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, indi “Cənub” qaz dəhlizi, “Şahdəniz” yatağının işlənməsi. Azərbaycan burada öz liderlik rolunu bir daha təsdiqlədi. “Cənub” qaz dəhlizinin müəllifi Azərbaycandır. Bu layihənin aparıcı qüvvəsi də Azərbaycandır. Bunu hamı bilməlidir. Azərbaycanın güclü iradəsi olmasaydı, bu layihə heç vaxt reallaşmayacaqdı. Biz bu layihənin reallaşması ilə bağlı çox gərgin iş aparmışıq. Çox gərgin və fəal iş aparmışıq ki, artıq bu layihəni icra etməyə başlamışıq. Biz buna Azərbaycan üçün ən məqbul şərtlərlə və beynəlxalq əməkdaşlıq çərçivəsində nail ola bilmişik. Çünki bizim tərəfdaşlarımız olmadan bu layihə icra edilə bilməz. Ona görə bu la-



yihə daha da böyük koordinasiya tələb edir. Çünki burada iştirak edən ölkələrin, şirkətlərin sayı çoxdur. Bakı-Tbilisi-Ceyhan layihəsinin icrasında üç ölkə – Azərbaycan, Gürcüstan, Türkiyə iştirak edirdi. Ancaq “Cənub” qaz dəhlizinin icrasında 10-a yaxın ölkə iştirak edəcək. Çünki biz bu layihəni çox böyük və geniş layihə kimi görürük, bunu əlbəttə ki, mərhələlərə bölürük. İlk növbədə, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin genişləndirilməsi, TANAP, TAP layihələri, ondan sonrakı dövrdə digər layihələr. Ona görə bu, tarixi hadisədir. Azərbaycan bu sahədə də liderlik keyfiyyətlərini göstərmişdir.

Ölkəmizin siyasi, iqtisadi maraqları təmin ediləcəkdir. Azərbaycan Avropa istehlakçıları üçün əvəzedilməz ölkəyə çevrilir. Bu nə deməkdir? Bunu çox izah etməyə də ehtiyac yoxdur. Biz Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində öz rolumuzu oynayırıq və getdikcə bu rol artacaq. Çünki Avropa üçün yeganə yeni qaz mənbəyi Azərbaycandır. Bütün başqa mənbələr – onlar artıq var. O mənbələrin ehtiyatlarını müxtəlif yollarla, yəni, yeni yollarla Avropaya nəql etmək mümkündür. Belə layihələr var, lakin yeni mənbə ancaq Xəzər hövzəsidir və Azərbaycandır. Biz bu məsuliyyəti öz üzərimizə götürmüşük. Əminəm ki, bu layihəni də uğurla icra edəcəyik. Çünki bu günə qədər bir dənə də layihə olmamışdır ki, biz onu başlayaq və icra etməyək. Həm Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, həm də Bakı-Tbilisi-Qars, yəni, beynəlxalq layihələrdən söhbət gedir. Əminəm ki, “Cənub” qaz dəhlizi də tam şəkildə icra ediləcəkdir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

***(Yanvarın 10-da Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən)***

## YÜKDAŞIMA

**Dövlət Statistika Komitəsinin məlumatına görə, nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 2014-cü ilin yanvar-dekabr ayları ərzində 222 milyon ton yük daşınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artmışdır.**

Qeyri-neft yüklərinin həcmi 3,4 faiz artaraq 159 milyona çatmışdır. Nəqliyyat vasitələri ilə daşınmış yüklərin 58 faizi avtonəqliyyat, 27,7 faizi boru kəməri, 9,8 faizi dəmiryolu, 4,5 faizi dəniz nəqliyyatı vasitələri ilə həyata keçirilmişdir.

Qeyri-dövlət bölməsində yük daşınması 3,5 faiz artmış, bu bölməyə məxsus nəqliyyat vasitələri ilə yük daşınmasının payı nəqliyyat sektorunda 76,4 faiz təşkil etmişdir.

Ötən ilin yanvar-dekabr aylarında nəqliyyatçılar 1,8 milyard nəfərə və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,7 faiz çox sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 88,2 faizi avtomobil, 11,8 faizi metro nəqliyyatının xidmətlərindən istifadə etmişdir.

Dəmir yolu nəqliyyatı ilə yük daşınması ötən ilin yanvar-dekabr aylarında 21,8 milyon ton olmuşdur. Orta he-




sabla sutkada 592 vaqon yüklənmiş, 608 vaqon boşaldılmışdır. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 22 min ton, Qərb istiqaməti üzrə 6,8 min ton və Cənub istiqaməti üzrə 5,4 min ton yükləmə işləri həyata keçirilmişdir.

Dəniz nəqliyyatında daşınmış yüklərin həcmi 9,9 milyon ton təşkil etmişdir. Yüklərin 56,1 faizini neft yükləri, 43,9 faizini isə quru yüklər təşkil etmişdir və bütün daşımalar xarici əlaqə üzrə həyata keçirilmişdir. Ötən il ərzində dəniz limanlarında 12 milyon ton yükləmə-boşaltma işləri həyata keçirilmişdir. Yüklənmiş yüklərin 86,9 faizini beynəlxalq tranzit yüklər təşkil etmişdir.




2015-ci il yanvarın 1-nə kimi limanlarda göndərilmək üçün 167,8 min ton idxal yüklərin qalığı olmuşdur.

Nəqliyyat sektorunda daşımaların həcminə görə ən böyük paya malik olan avtomobil nəqliyyatı ilə 128,6 mil-



yon ton, 1,6 milyard sərnişin daşınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 2,7 və 4,8 faiz artım qeydə alınmışdır. Sərnişinlərin 96,3 faizi avtobus, 3,7 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişlər. Yük dövriyyəsi 2,8 faiz, sərnişin dövriyyəsi isə 5,1 faiz artmışdır. Metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı artaraq 215,5 milyon nəfər olmuşdur. Hava nəqliyyatı ilə 1,8 milyon və ya 7,6 faiz çox sərnişin daşınmış, daşınmanın 99,6 faizi dövlət, 0,4 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə həyata keçirilmişdir. Bu nəqliyyat vasitələri ilə daşınmış yüklərin həcmi 123,8 min tona çatmışdır.

Magistral neft kəmərləri ilə 45,8 milyon ton neft nəql edilmiş və ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,1 fa-



iz artım müşahidə olunmuşdur. Nəqletmənin dörddə üç hissəsi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmiş və 2014-cü ilin yanvar-dekabr ayları ərzində bu kəmər vasitəsilə 34,6 milyon ton neft ötürülmüşdür. Dövr ərzində gəmilər vasitəsilə ölkəyə gətirilərək Səngəçal terminalından BTC kəməri ilə 5,6 milyon ton tranzit Türkmənistan nefti nəql edilmişdir.

Magistral qaz kəmərləri ilə 21,9 milyard kubmetr və ya 9,4 faiz çox qaz nəql edilmişdir. Nəql edilmiş qazın 29,9 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kə-



məri vasitəsilə həyata keçirilmiş və 6,5 milyard kubmetr qaz ötürülmüşdür.

2014-cü ilin yanvar-noyabr aylarında “İpək yolu” nəqliyyat dəhlizinin Azərbaycan ərazisində 53,1 milyon ton yük, 278 milyon nəfər və ya 7,7 faiz çox sərnişin daşınmışdır. Yüklərin 26,3 milyon tonu və ya 49,7 faizi avtomobil nəqliyyatı, 18,3 milyon tonu və ya 34,4 faizi dəmir yolu nəqliyyatı, 8,5 milyon tonu və ya 15,9 faizi dəniz nəqliyyatı ilə daşınmışdır. Yük daşımaları fəaliyyətindən 465,9 milyon manat, sərnişin daşınmasından isə 97,9 milyon manat gəlir əldə olunmuş və müvafiq olaraq 10,7 və 10,3 faiz artmışdır.

# O GECƏ BİZ HARDA İDİK?...

## Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri "Xocalı soyqırımının 23-cü ildönümünün keçirilməsinə dair tədbirlər planı"nı təsdiqləyib

**Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə "Xocalı soyqırımının iyirmi üçüncü ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib.**

Tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərində, nümayəndəliklərində və diaspor təşkilatlarında bu soyqırımı ilə bağlı tədbirlərin (mətbuat konfranslarının, anma mərasimlərinin və s. təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən teleradio kanallarında, internet şəbəkəsində Xocalı soyqırımına həsr olunan materialların yayılması nəzərdə tutulub.

Sənədə əsasən, ölkədə fəaliyyət göstərən dini konfessiya və qurumlar tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anma mərasimləri təşkil ediləcək, idarə və təşkilatlarda, teatr-konsert müəssisələrində, sərgi salonlarında, ali və orta məktəblərdə xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər keçiriləcək, milli azadlıq uğrunda mübarizəyə həsr olunan sənədli və bədii filmlər nümayiş etdiriləcək.

Xocalıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Goranboy, Bərdə, Sabirabad, Göyçay, Zaqatala, Oğuz, Balakən) dövlət qurumları rəhbərlərinin, Milli Məclisin deputatlarının və ziyalıların iştirakı ilə şəhid ailələrinə yardımlar göstəriləcək.

Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər bu faciəyə həsr olunacaq, həmin gün saat 17.00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, Azərbaycanın dövlət bayraqları endiriləcək.

**On səkkiz-on doqquz il əvvəl televiziyada Xocalı faciəsi ilə bağlı verilişdən göz yaşlarını saxlaya bilməyən məktəbli qızımın hönkürə-hönkürə mənə verdiyi bir sual hələ də qulağımdan getməyib: "Ata, o gecə sən harda idin?"**

Əslində bu, sualdan çox, ittihama bənzəyirdi. Axı uşaqların hamısı atalarını dünyanın ən güclü adamı sayırlar. Qızıma da elə gəlirdi ki, atası o gecə Xocalıda olsaydı, bir azərbaycanlının burnu belə qanamazdı.

Qızımın nə düşündüyündən asılı olmayaraq, sual məni tutdu. "Doğrudan, o gecə mən harda idim?" Ümumiyyətlə, o gecə və o gecədən çox-çox əvvəl biz – mən, sən, o harda idik ki, qanımıza susamış ermənilər bir neçə saatın içində o boyda şəhəri yerlə yeksan etdilər? Dinc əhaliyə tutduqları divandan Xocalıda qan su yerinə axdı...

İyirmi üç il əvvəl fevralın 25-dən 26-na keçən gecə xüsusi qəddarlıqla törədilmiş Xocalı qətliamı ermənilər tərəfindən xalqımıza qarşı həyata keçirilən soyqırımı siyasətinin davamı idi. Naqasaki, Xirosima, Xatun soyqırımları ilə müqayisə edilən Xocalı faciəsi əslində qəddarlığın, amansızlığın dərəcəsinə görə, dünyanın şahid olduğu bütün qətliamları kölgədə qoyur. Bəli, Xocalıda törədilmiş soyqırımı qeyri-insani cəza üsullarına görə, tarixdə ən dəhşətli cinayət aktıdır. Azərbaycanlı olduğum üçün belə qənaətə gəldiyimi düşünənlərə Xocalıya hücumdan sonra hadisə yerinə tələsən erməni yazıçısı Zori Balayanın bir etirafını xatırlatmaq istəyirəm: " Xocalıda evlərdən birinin divarına 11 yaşlı türk qızının mismarlandığını gördüm. Türklərə olan nifrətimi hələ də can verən qızın sinəsindən dərinin qopardılması ilə soyutmağa çalışdım".




Bu, erməni yazıçısının, erməni "ziyalısının" dilindən çıxan sözlərdir. İndi təsəvvür edin, "ziyalı" olmayan digər ermənilər dinc azərbaycanlıları qətlə yetirəndə – başlarını, qollarını, barmaqlarını kəsəndə, gözlərini çıxaranda, hamilə qadınların qarınlarını yaranda, diri-diri yandıranda... nə "ləzzət" alıblar. Rəsmi məlumatlara görə, erməni təcavüzkarları bir gecədə Xocalıda 613 dinc sakini, o cümlədən 106 qadını, 63 uşağı, 70 ahıl insanı amansızlıqla, 56 nəfəri xüsusi qəddarlıq və içgəncə ilə qətlə yetiriblər. 487 nəfəri ömürlük şikəst ediblər ki, onların da 76-sı azyaşlı uşaqlardır. 1275 azərbaycanlı erməni quldurları tərəfindən əsir götürülmüşdür. Xocalı faciəsi zamanı 150 azərbaycanlı isə itkin düşüb.

Ulu öndərimiz Heydər Əliyev Xocalı faciəsinin 3-cü ildönümü ilə bağlı keçirilən matəm mərasimində demişdir:" Tarixdə insanın insana qarşı vəhşilik etməsi halları dəfələrlə qeyd olunub. Soyqırımı da dünyanın bir çox yerlərində baş vermişdir. Azərbaycana qarşı erməni qəsbkarları, təcavüzkarları tərəfindən edilən soyqırımı bunların ən dəhşətlilərindən biridir. Uzun müddət, demək olar ki, XX əsr ərzində Azərbaycan xalqına, millətinə qarşı Ermənistan təcavüzkarları tərəfindən olunan soqırımları xalqımıza böyük yaralar vurmuşdur. Onların arasında ən böyük, ən ağır yaralardan biri Xocalı soyqırımıdır, altı il davam edən müharibədir.

Xocalı hadisələri bir daha onu göstərdi ki, ermənilər Azərbaycanın təkcə torpaqlarına göz dikmək, ərazimizi qəsb etmək yox, xalqımıza qarşı soyqırımı törətmək kimi vəhşi bir yola düşmüşlər. Bu, Xocalı hadisələrində özünü açıq-aşkar büruzə verdi. O dəhşətli gecədə Azərbaycan xalqının ürəyinə bir süngü taxıldı. O süngü indiyədək bizi sızıldadır. Bu yara hələ sağalmayıb, bağlanmayıb, bu yara qəlbimizdə həmişə olacaqdır. Qeyd etdiyim kimi, gecə vaxtı dinc əhaliyə hücum etmək, uşağı, qadını, qocanı, xəstəni vəhşicəsinə yerindəcə məhv etmək, öldürmək və onlara görünməmiş qəddarlıqla əzab-əziyyət vermək düşmənlərimizin nə qədər vəhşi olduğunu bir daha sübut edir."

Amma əfsus ki, Xocalı faciəsinin ağırlığı o zamankı Azərbaycan hakimiyyəti tərəfindən lazımınca qiymətləndirilmədi. Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün cəhd göstərilmədi. Məhz Ulu öndər Heydər Əliyev xalqın təkidi ilə hakimiyyətə gələndən sonra Xocalı faciəsi ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı aktı kimi təsbit olundu və dünyada tanıdılması istiqamətində xeyli iş görüldü. 1997-ci il fevralın 25-də "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" fərman verildi. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə qətliama obyektiv qiymət verilməsi siyasətini bu gün dövlətimizin başçısı möhtərəm İlham Əliyev qətiyyətlə davam etdirir. Bu istiqamətdə görülən işlər artıq daha ciddi nəticələr verməkdədir.

### QİYAMƏTƏ QALAN DEYİL

Öyünmə çox da, ay xain,
Arxadan vurmağın ilə.
Torpağımı işğal üçün
Min kələk qurmağın ilə.
Tutacaqdır əvvəl-axır
Xocalının ahı səni.
Yandırıb kül edəcəkdir
O boyda günahın səni.
Fəryadını eşidirik
Biz bu gün də o gecənin.
Cəzası nə, bilirsənmi
Sənin kimi qaniçənin?!
Daha keçmir yalanların,
Dünya gördü iç üzünü.
Torpağıma göz dikənin
Gərək töküm hər gözünü.
Artıq sənə erməni yox,
Hamı əfi ilan deyir.
Əminəm ki, qisasımız,
Qiyamətə qalan deyil.

**Rasif İMANOĞLU**

## Xocalı soyqırımını törədənlər beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər

Xocalı soyqırımını törədənlər beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər. Azərbaycanlılara qarşı törədilən bu soyqırımı bəşəri cinayətdir.

AzərTAc xəbər verir ki, bu fikirləri Moldova ombudsmanı Aurelia Qriqoriu söyləyib.



Aureliya Qriqoriu Azərbaycan xalqının başına gətirilmiş faciələrin dünya ictimaiyyətinə çatdırılmasının bütövlükdə bəşəri dəyərlərə qarşı yönəlmiş cinayətlərin qarşısının alınması baxımından önəmini qeyd edib. Ombudsman bu mənada Xocalı faciəsinə xüsusi diqqət yetirilməli olduğunu bildirib, bu faciənin soyqırımı aktı olaraq qəbulunun zəruriliyini vurğulayıb. O əlavə edib ki, beynəlxalq ictimaiyyət bu cür hadisələrə biganə yanaşmamalıdır.

Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünyaya daha geniş miqyasda çatdırılmasının önəmini qeyd edən A.Qriqoriu cinayətkarların gec-tez layiqli cəzalarını alacaqlarına inandığını bildirib.

"Böyük Ermənistan" xülyası ilə yaşayan xain qonşularımız öz sərhədlərini Azərbaycan torpaqları hesabına genişləndirmək kimi məkrli niyyətlərinin reallaşdırılmasına çoxdan başlayıblar. Keçən əsrin əvvəlindən 500 mindən çox azərbaycanlının ermənilər tərəfindən öldürülməsi, azərbaycanlılar yaşayan 6 min kvadratkilometrlik əzəli Azərbaycan torpaqlarının zorla boşaldılması, həmin ərazilərdə 1milyondan çox azərbaycanlının zorla qovulması, 2 minə yaxın Azərbaycan mənşəli yaşayış yerlərinin tarixi adının dəyişdirilməsi, hal-hazırda ərazimizin 20 faizinin erməni hərbi birləşmələrinin işğalı altında olması xalqımıza qarşı soyqırımın planlı, ardıcıl həyata keçirildiyini sübut edir. Bəd əməllərini gerçəkləşdirmək üçün canavar kimi həmişə pusquda durmuş, fürsət, məqam gözləmişlər. Belə fürsətlərdən birini də onlara keçən əsrin axırlarında SSRİ-nin rəhbərliyinə gələn ermənipərəst M. S. Qorbaçov verdi. Amma nə qədər ki, Ulu öndərimiz Heydər Əliyev Moskvada rəhbər vəzifədə idi, buna cəsarəti çatmırdı. Ulu öndərimiz Sov. İKP Siyasi Bürosundan uzaqlaşdırıldıqdan sonra ermənilər dərhal hərəkətə gəldilər. Qorbaçovu əhatə edən, ona yol göstərən yüksək çinli ermənilər Azərbaycana qarşı ərazi iddiaları səsləndirdilər. Dağlıq Qarabağ Muxtar Vilayətindəki erməni separatçı-terrorçu "Krunk" təşkilatı açıq fəaliyyətə başladı. Yerevanda Azərbaycan Respublikası torpaqlarının Ermənistana birləşdirilməsi tələbinin SSRİ rəhbərliyi tərəfindən sakit, müqavimətsiz qarşılanması erməniləri bir az da azğınlaşdırdı. 1988-ci ildə öz tarixi torpaqlarında yaşayan 250

*(Davamı 3-cü səhifədə)*

*(Əvvəli 2-ci səhifədə)*

# O GECƏ BİZ HARDA İDİK?...



min azərbaycanlını qovmaqla Ermənistanı monoetik dövlətə çevirən ermənilər onlara "Gözün üstə qaşın var" deyənin olmadığını görüb sərhədləri aşmaqla Azərbaycan Respublikasının ərazilərini zəbt etməyə başladılar. Artıq Azərbaycana qarşı açıq və ədalətsiz müharibə aparan Ermənistan hərbi birləşmələri Dağlıq Qarabağdakı erməni separatçıları ilə birləşərək 1991-ci ilin oktyabrında Tuğ və Sələkətin, az sonra Xocavənd kəndlərini işğal etdilər. Sonralar Axullu, Malıbəyli, Quşçular, Qaradağlı... erməni işğalçılarının nəzarəti altına keçdi. Artıq Xocalı istiqamətində yaşayış məntəqələri ermənilər tərəfindən tutulmuşdu. Və növbəti hədəf Xocalı idi...

Xocalı Xankəndidən 19 kilometr cənub-şərqdə, Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşirdi. O vaxt Qarabağda yeganə hava limanının Xocalıda olması ermənilərin yeddi min əhalisi olan bu şəhərə iştahasını daha da artırırdı.

Bəs biz onda harda idik? Bütün bunları görmürdük? Bu sualı Ulu öndərimizin sözləri ilə cavablandırmaq istəyirəm: "Xocalı faciəsinin baş verməsində Azərbaycanın o vaxtkı rəhbərliyi , hakimiyyət orqanları böyük məsuliyyət daşıyırlar. Uzun müddət mühasirə şəraitində, güclü düşmənlə üzbəüz, mərdliklə vuruşan yerli əhalidən fərqli olaraq, hər bir vətəndaşın müdafiəsini təmin etməyə borclu olan respublika rəhbərliyi o zaman tam fəaliyyətsizlik və xalqın taleyinə biganəlik göstərmiş, əsas diqqəti hakimiyyət uğrunda mübarizəyə yönəltmişdir. Ən acınacaqlısı odur ki, sonralar da Xocalı hadisələrindən erməni terrorçularının vəhşi əməllərinin mahiyyətini ifşa etmək istiqamətində deyil, siyasi çəkişmələrdə istifadə olunmuşdur."

Amma artıq Azərbaycan 23 il əvvəlki deyil. Azərbaycan yüksəliş, tərəqqi dövrünü yaşayır. İqtisadi inkişaf tempinə görə dünyada lider mövqeyə malikdir. Bu gün Azərbaycan hərbi qüdrətinə görə hər bir təcavüzkarı yerində otuzdurmağı, ona həddini göstərməyi bacarar. Bu gün Azərbaycan beynəlxalq aləmdə söz yiyəsi, nüfuz yiyəsidir. Elə buna görə, aparıcı dövlətlər Azərbaycanla hesablaşırlar, Ermənistanın işğalçı dövlət olduğunu təsdiqləyirlər. Qaldı bircə işğalçı Ermənistanın işğalçı ordusunun işğal etdiyi torpaqlarımızdan çıxarılmasına, bunu öz xoşları ilə etməsələr, elətdirməyə gücümüz, qüvvəmiz çatar! Bunun üçün Ali Baş Komandanımızın bircə əmri kifayətdir. Və o əmr verilən gün Milli Ordumuzun əsgərlərindən biri də şübhəsiz ki, bu sətirlərin müəllifi olacaq...

**Rasif TAHİROV**

## MÜZAKİRƏLƏRDƏ FƏAL İŞTİRAK ETMİŞLƏR



**Yanvarın 30-da Bakının "Four Seasons" mehmanxanasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının birgə dəstəyi ilə "Azərbaycanın Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin Tərkibindəki Sahilyanı Ekoloji Sistemlərdə İdarəetmənin Təkmilləşdirilməsi" layihəsinin ilk iclası keçirilmişdir.**

İclasda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətini (Cəmiyyət) Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi departamentinin əməkdaşları təmsil etmişlər.

Cəmiyyətin nümayəndələri layihə ilə bağlı məruzələrin müzakirəsində fəal iştirak etmişlər. Geniş diskussiya və fikir mübadiləsindən sonra müvafiq layihə üzrə 4 illik icra proqramının işlənməsi və növbəti iclas ərəfəsində iştirakçılara təqdim olunması qərara alınmışdır.

**KSƏTƏMM departamenti**

## Yanğın əleyhinə profilaktika heyəti ilə toplantı və yanğın təhlükəsizliyi üzrə təlim keçirilib

**Fevralın 3-də "Bibiheybət" Gəmi Təmiri Zavodunda (BGTZ) SƏTƏMM şöbəsinin yanğın əleyhinə profilaktika üzrə mütəxəssislərinin iştirakı ilə növbəti toplantı keçirilmişdir.**

Toplantıda "BGTZ-da SƏTƏMM şöbəsinin yanğın əleyhinə profilaktika heyətinin gündəlik iş bölgüsü və sahə təftişləri" və "İlkin yanğınsöndürmə vasitələrinə nəzarətin gücləndirilməsi" məsələləri ətraflı müzakirə olunmuş, həlli vacib problemlərlə bağlı müvafiq tövsiyələr verilmişdir.

Toplantıdan sonra sahə mütəxəssisləri üçün təlim keçirilib.

Təlim zamanı "Yanğınların əsas baş vermə səbəbləri", "Yanğınların təsnifatı", "İlkin yanğınsöndürmə vasitələrinin (odsöndürənlərin) növləri, onlardan düzgün və təhlükəsiz istifadə qaydaları" məsələlərinə xüsusi diqqət yetirilmişdir.



Tədbir Cəmiyyətin KSƏTƏMM departamentində tərtib olunmuş "Yanğın nəzarətçiləri üçün təlim" proqramı çərçivəsində keçirilmişdir.

**KSƏTƏMM departamenti**

## Dənizlərə gözəllik verən gəmilərimiz







## İtaliya sahillərində 29 miqrant həlak oldu

**Qaçaqmalçılara məxsus qayıqla Aralıq dənizində Şimali Afrikadan Avropaya keçərkən azı 29 miqrant donub ölmüşdür. Bu barədə İtaliya sahil mühafizəsi məlumat vermişdir.**



Lampeduza adasından 160 kilometr aralıda aşkarlanmış qayıqda azı 100 nəfər olmuşdur. Çıxılmaz vəziyyətə düşmüş miqrantlar peyk telefonu ilə İtaliya hakimiyyət orqanlarına müraciət edərək kömək istəmişlər. Fəlakət zonasında dalğalar səkkiz metrə çatırdı, suyun və havanın temperaturu sıfıra yaxın idi.

**Bortda ad**

# Əbədiyyət nəğməsi

**XX əsrin ikinci yarısında nəinki sadə milyonların, hətta prezident və şahların pərəstiş etdiyi dünyanın ən məşhur müğənnisi Müslüm Maqomayevin adını daşıyan gəminin 2014-cü il dekabrın 18-də Xəzərin sahilində görünməsi ölkəmizin, Rusiyanın və bütün regionun tarixində baş verən ən önəmli hadisələrdən biri idi. Bu tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin, ölkənin birinci xanımı Mehriban Əliyevanın və M.Maqomayevin həyat yoldaşı Tamara Sinyavskayanın sevinc və qürur hissi ilə iştirak etməsi bir daha onu göstərdi ki, aradan illər ötsə də, onlar bütün Azərbaycan və Rusiya ilə birlikdə Müslümə ölümündən sonra belə, dostluq və sevgilərində sadiqdirlər, zərrəcə dəyişməyiblər. Əksinə, zaman bu münasibətlərin paklığını sınağa çəkmədən cilalayıb, ülviləşdirib və qərinələrin dənizində bəyaz yelkənləri ilə boy verərək sonsuzluğa üzən gəmi kimi onu seyr edənlərə hədsiz qürur hissi bəxş edir.**



“Müslüm Maqomayev” gəmisi beləcə həmin gün Xəzərin sahillərinə bu müqəddəs sevgini təcəssüm etdirən həzin bir xatirə, hamımızın ürəyini gizildədən əbədiyyət nəğməsi kimi yan aldı. Bu hadisə ilə bağlı AzərTAC-ın xronikasında deyilirdi ki, “Müslüm Maqomayev” gəmisinin istismara verilməsini bildirən rəmzi lenti SSRİ xalq artisti Tamara Sinyavskaya kəsdi. Sonra Müslüm Maqomayevin məşhur “Azərbaycan” mahnısı səsləndirildi. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və ölkənin birinici xanımı Mehriban Əliyeva Tamara Sinyavskaya ilə xatirə şəkli çəkdirdilər.

Həmin tədbirin Azərbaycan və dünya mədəniyyəti tarixində vacibliyini dərk etmək, vətəni və onun dahiləri ilə öyünmək istəyən hər bir kəsə Müslümün şəxsiyyəti və istedadı haqqında qısaca da olsa məlumat verməyə ehtiyac var. Müslüm kim idi? Bir kəlmə ilə desək, qırğız xalqının oğlu Çingiz Aytmatovun dünya ədəbiyyatında ucaldığı zirvələri azərbaycanlı Müslüm musiqidə fəth etdi. O, olduqca sadə, məğrur, qürurlu və misilsiz istedad sahibi idi.

Müslüm Maqomayev azərbaycanlıdır. Vətənimiz onunla doğma balası kimi öyünür, baxmayaraq ki, ruslar bu gün də onu özününkü sayırlar. Müslüm haqqında adıgey dostum jurnalist Aslan Kikov isə fəxrlə yazır ki, o ana tərəfdən bizimkidir. Aslanın peşəsi də internet səhifəsinə Müslümün mahnılarını yerləşdirməkdir. Müslüm Maqomayev sağlığında danışdığı bir əhvalatla milli mənsubiyyətinə özü belə aydınlıq gətirib: “Bir dəfə Esenbayev (məşhur çeçen rəqqası, SSRİ xalq artisti-B.İ.) mənə dedi ki, sən çeçensən. Cavab verdim ki, yox, Mahmud, mən azərbaycanlıyam. Azərbaycanda doğulmuşam, bu respublika mənə çörək verib, böyüdüb, burada savad almışam. Mənim valideynlərim bütün ömürlərini burada yaşayıblar. Mahmud məndən incidi ki, çeçen olmaq şərəfindən imtina etdim. Biz iki il danışmadıq. Onu da qeyd edim ki, biz Mahmudla, bu xeyirxah və ziyalı insanla onun ömrünün sonuna kimi dostluq etmişik”.

Azərbaycanlı olduğunu israr edən müğənniyə “Rossiyskaya qazeta”nın müxbiri heyrətlə etiraz edir: - “Axı Siz rus müğənnisiniz!” Müslüm özünə məxsus sakit bir qətiyyətlə cavab verir: - “Mən özümü rus müğənnisi saymıram. Mən beynəlmiləlçəm. Rus mahnılarından yalnız “Vdol po Piterskoy” var məndə”. Jurnalist: “Axı Siz Rusiyanın müğənnisisiniz”! - deyib inad edəndə, Müslüm maraqlı bir açıqlama verir: “Mən sadəcə Rusiyada ömrüm boyu yaşadım, məmnuniyyətlə rus dilində oxudum. Rusiyalılar mənə qulaq asırdılar, sevirdilər məni. Lakin Bakıda doğulub böyüdüm. Sonra taleyim məni Azərbaycanın mədəniyyət nümayəndəliyinin tərkibində Moskvaya gətirdi, Qurultaylar sarayında çıxış etdim və o saat məni bütün SSRİ tanıdı”.

Müslüm hansı istedadın sahibi idi? Bu gün toyxanalardan konsert zallarına tamaşaçı qıtlığından çıxmağa cəsarət etməyən ifaçıları gözünüzün önünə gətirin. Sonra da sovetlər dönəminin böyük konsert zallarını xatırlayın! Müslüm bayağı ziyafətlərin və böyük zalların xiffətini çəkənlərdən deyildi. SSRİ daxili işlər naziri Şelokovun konsertə dəvətindən Müslüm imtina edir və yalnız Heydər Əliyev xahiş etdikdən sonra oxumağa razılıq verir. O hamıdan və hər şeydən ucalıqlarda dayanardı.

M.Maqomayevin nəhəng stadionlarda keçirilən konsertləri sovet musiqi tarixində bir inqilab, yenilik idi. Onu minlərlə qadın dəlicəsinə sevirdi, sadəcə əlini sıxmaq, heç olmasa barmağının ucuyla ona toxunmaq üçün hönkür-hönkür ağlayardılar, onun maşınına belə çılğın öpüşlərin al pomadası kəpənəklər kimi qonardı...

O sovet estradasının səmalarında hamıdan yüksəkdə parlayan yeganə Dan ulduzu idi. Dünyanın ən məşhur konsert salonları Müslümü birdəfəlik Sovet İttifaqından qoparmaq üçün ən yüksək səviyyələrdə istənilən danışıqlara gedirdilər, istənilən məbləğə razılaşırdılar. Məşhur Paris “Olimpiya”sının direktoru Bruno Kokatrus SSRİ mədəniyyət naziri Furtsevadan Müslümü öz teatrı üçün istəyəndə sovet naziri razılıq vermir. Müslüm incimir. Özü etiraf edir ki, davranışında gözlənilməz sürprizlər olan müğənni kimi çılğın idi, ən yüksək məmurun da qapısını çırpıb gedə bilərdi. Ona görə də onu xaricə buraxmağa sadəcə qorxurdular.

Müslüm elə bir insan idi ki, ürəyinə yatmayan heç bir işə qol qoymazdı. Kinorejissor Aleksandr Zarxi onu “Anna Karenina” filminə Vronski roluna çəkilişə dəvət edəndə Müslüm imtina edir, “Bacarmadığım işdən yapışmağı xoşlamıram” - deyir. Amma “Nizami” filmində Nizami roluna böyük məmnuniyyətlə razılıq verir.

Müslüm yaxşı musiqidən heç vaxt korluq çəkməzdi: “Bizim vaxtımızda yaxşı mahnılar yazılırdı və mən istədiyimi seçə bilirdim. Deyirdilər ki, mənim üçün yazırlar, bəstəkarlar mənim səsimi, xarici görkəmimi nəzərə alırdılar, lakin mənim taleyimin hekayəti kənarda qalırdı”.

Mahnılarına görə Müslümə baş katiblərin həm səcdə etdiyi, həm də qəzəbləndiyi vaxtlar olub. Tale elə gətirdi ki, bütün təhlükələr Müslüm Maqomayevdən yan keçdi. Çünki onu qoruyan, hifz edən, ona 32 yaşında SSRİ xalq artisti adı verdirən Heydər Əliyev kimi nəhəng himayədarı vardı. Ulu öndər isə Müslümü yalnız istedadına görə yox, həm də şəxsiyyətinin bütövlüyünə və böyüklüyünə görə müdafiə edirdi. Müslümün dissident təbiəti ulu öndərin himayəsində bir az ərköyünlük kimi qiymətləndirilirdi. Bəlkə də Heydər Əliyev olmasaydı tale sərt üzünü ona göstərər, dişini qıcayardı. Lakin Müslüm çətinlikləri də təbii qəbul edirdi, özü haqqında deyirdi ki, “Mən taleyimin üstünə iradlarımla şığımadım”.

Belə nadir keyfiyyətlərə malik insanın adını daşıyan gəminin Xəzərin sularında görünməsi mübaliğəsiz ötən ilin ən unudulmaz hadisələrindən biridir. Bu tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev müğənni haqqında ürək sözlərini belə demişdir: “Bu gün bu, bizim əziz Müslümümüzün, Azərbaycan xalqının fəxrinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində ilk addımdır. İlk, amma sonuncu addım deyil. Gələcəkdə də addımlar atılacaq. Onun adı bizim xatirəmizdə, qəlbimizdə, Azərbaycan xalqının, Rusiyanın ürəyində əbədi yaşayacaq. Çünki o, həmişə deyirdi ki, Azərbaycan mənim atam, Rusiya isə anamdır. Müslüm Azərbaycanda anadan olub, formalaşıb, məşhurlaşıb, Rusiyada isə ümumdünya şöhrəti qazanıb, öz yaradıcı potensialını tam reallaşdıra bilib. Nadir şəxsiyyət, çoxtərəfli istedad olub. Bir şəxsiyyətdə bu qədər istedadın birləşməsini təsəvvür etmək çətindir. Amma bu, həqiqətən belə idi. Onu tanıyanlar bunu bilirdilər. Bununla yanaşı, Müslüm gözəl insan idi. Bir şəxsiyyətdə həm insani, həm yaradıcı keyfiyyətlərin cəmləşməsi çox nadir haldır. Bu günə qədər heç kəs Müslümün mahnılarını onun özü kimi ifa edə bilmir. Cəhdlər çoxdur. Bu, başadüşüləndir, onun mahnılarını ifa etmək arzusunda olanlar çoxdur. Mən bunu alqışlayıram. Çünki bu mahnılar yaşamalıdır. Lakin bu günə qədər heç kim bu mahnıları Müslüm kimi ifa edə bilməyib. Düşünürəm ki, bundan sonra da bunu edə bilməyəcəklər. Bu gün də hər dəfə onun mahnılarını dinləyəndə sevinc hissi duyuruq, Müslümün bizi çox tez tərk etməsindən isə kədərlənirik. Müslüm bizim ürəyimizdə, xatirəmizdə, dostlarının yaddaşında yaşayır”.

İnsan varlığını araşdıran alimlər belə qənaətə gəliblər ki, insan ölmür, onun cismi torpağa tapşırılsa da, ruhu (müqəddəs kitabımızda deyilir ki, ruh haqqında sizə cüzi biliklər verilib) kainatda qalır, müəyyən fəaliyyət göstərə bilir. Bu fərziyyənin reallıqlara nə dərəcədə bağlandığını demək çətin olsa da, o günü bizə elə gəldi ki, Müslümün ruhu adını daşıyan gəmiyə ötəri də olsa toxundu, Xəzərin mavi sularına sığal verib getdi.

Onun yüz minlərlə insanın qəlbində yaşaması, əsrdən əsrə adlayan mahnılarının bu gün də ürəkləri riqqətə gətirməsi təbiidir. Tələbəlik dostum, “İzvestiya” qəzetinin keçmiş baş redaktoru, Birinci Bakı Humanitar Forumunun iştirakçısı Vitaliy Abramov ötən ilin sonunda həyat yoldaşı ilə Bakıya qonaq gəlmişdi. Onun ziyarət etdiyi yerlərin sırasında Heydər Əliyevlə Zərifə xanımın və Müslüm Maqomayevin məzarları var idi. Vitaliy Gennadiyeviç bu iki insanın heyrətamiz və müqəddəs dostluğundan xeyli danışdı: “Bütün Rusiya bilir ki, Heydər Əliyeviç kimi siyasi nəhəng Maqomayevi doğma oğlu kimi sevirdi, qoruyurdu, uca tuturdu. Onun Azərbaycanda dəfn olunmasını və bu mərasimdə Azərbaycan Prezidentinin birinci simaların təhlükəsizlik qaydalarına rəğmən Bakı Filarmoniyasından Fəxri xiyabanadək uzun yolu müğənnini son mənzilə qardaş kimi piyada yola salmasını unutmaq çətindir”.

60 illik yubileyində Rusiya Prezidenti Vladimir Putin təbrik məktubunda Müslümə yazırdı ki, pərəstişkarlarınızın Sizin peşəkar istedadınızı etiraf etməsi və onların ötüb keçməyən sevgisi Sizin çoxtərəfli istedadınıza və heyrətamiz valehediciliyinizə layiq hədiyyədir. Belarus Prezidenti A.Lukaşenko müğənninin yaradıcılıq fəaliyyətini ölkə və dünya musiqisinin ən parlaq səhifəsi hesab edirdi. Müslüm haqqında yalnız dövlət başçıları yox, dünyanın ən məşhur simaları, ən böyük söz sahibləri ən qiymətli sözləri deyiblər. Belə sitatlardan yüzlərlə nümunə gətirmək olar. Lakin ən dəyərli ideyanın, ən layiqli hədiyyənin Müslümün ruhuna hədiyyə edilməsi məhz Azərbaycanda, müğənninin dünyaya gəldiyi və əbədi uyuduğu torpaqda baş verdi. Qürur gətirən budur. Hər hansı bir gəminin, qatarın, hətta kosmik gəminin belə, istismara verilməsi iqtisadi mahiyyət daşıyır. Müslümün gəmisində iqtisadiyyatdan savayı mənəvi bir dəyər, hər bir Azərbaycan vətəndaşına fəxarət bəxş edən nəcib niyyət var. Bu tədbiri telekanallarda milyonlarla insan seyr edirdi və bəlkə də onların hamısına elə gəlirdi ki, “Müslüm Maqomayev” gəmisini dənizə ovuclarında özləri ehmalca suya buraxıb Xəzərə tapşırırlar və Müslümün səsiylə “Mavi əbədiyyət” mahnısındakı bu sözləri eşidirdilər:

*Dəniz, dəniz məni özünlə götür,*
*Al yelkənlə mavi sonsuzluqlara apar.*
*Nəvaziş axtarışında qəmli ulduzlar*
*Mavi əbədiyyətdən Yerə sarı uçurlar.*

Dövlət başçılarının iştirak etdiyi bütün tədbirlərdə hamıya məlum bir protokol davranışı var. Müəyyən çərçivələrə riayət olunur, rəsmiyyət gözlənilir. Dekabrın 18-də bu qaydalar sözün yaxşı mənasında unuduldu. Azərbaycan Prezidenti istedadına və şəxsiyyətinə rəğbət bəslədiyi M.Maqomayevin musiqi dühası haqqında bütün rəsmiyyəti kənara qoyaraq səmimi danışdı, bir dost kimi, Müslümün böyüklüyünü dərk edən, qiymətləndirən dövlət xadimi kimi onun “Azərbaycan” adlı mahnısını ölkəmizin rəmzi, “Dəniz” nəğməsini isə müğənninin şəhərimizə, dənizə olan məhəbbətinin qənirsiz təcəssümü kimi qiymətləndirdi: “Yəqin ki, dəniz haqqında daha yaxşı mahnını heç kəs bəstələməyib”. Azərbaycan Prezidenti Müslümlə yaxın dost olduğunu, bir-birinə böyük rəğbət və hörmətlə yanaşdıqlarını qeyd edərək dedi: “Atam ona oğul kimi, o isə Heydər Əliyevə ata kimi yanaşırdı. Düşünürəm ki, bizim ailəvi münasibətlərimizdə hökm sürən ab-hava bütün cəmiyyətə sirayət edib. Müslümü Azərbaycanda seviblər, sevirlər və bundan sonra da əbədi olaraq sevəcək və xatırlayacaqlar”.

“Müslüm Maqomayev” gəmisi Xəzərin sularında həyata vəsiqə alan günü göz yaşları ilə sevinci arasında özünü itirən SSRİ xalq artisti Tamara Sinyavskaya əliylə alnına işarə edərək illər boyu qafasında gəzdirdiyi, lakin kimsəyə açmadığı arzunu gözlənilmədən reallaşdıran Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirməyə söz tapmadı və onu doğma bir insan kimi qucaqladı. Arzular bəzən real, bəzən də kainatın sinəsində zümrüd gözəlliyi ilə bərq vuran lal ulduzlar qədər əlçatmaz və uzaq olurmuş. Tamara xanımın heç vaxt heç kimə açmağa cəsarət etmədiyi arzu Azərbaycan Prezidentinin qəlbində də gəzirmiş.

“Müslüm Maqomayev” gəmisinin dünyaya gəlişinin başqa bir ölkədə, başqa limanda yox, məhz Bakıda, Xəzərdə baş verməsi “Mavi əbədiyyət” mahnısını dilindən və dinindən asılı olmayaraq ömründə heç olmasa bircə dəfə dinləyən hər bir kəsin və Müslümə, onun sənətinə köksündə sonsuz eşq gəzdirən milyonlarla pərəstişkarın həyatında təntənəli bir hadisədir. Dahi müğənninin doğulduğu və indi qoynunda uyuduğu Azərbaycan bir daha bəşəriyyətə sübut etdi ki, misilsiz istedadlarının qədrini bilir, onların ruhunu ülvi məhəbbətlə qorumağı bacarır.

“Müslüm Maqomayev” gəmisinin bir il ərzində Avstraliyanın “Incat-Tasmania” gəmiqayırma zavodunda inşa edilməsi, 11,5 min mil məsafə qət edərək Bakıya çatmasını sanki bizimlə birlikdə Müslümün ruhu da gözləyirdi. Müslümün rus dilində oxuduğu və musiqisini özü bəstələdiyi “Mavi əbədiyyət” mahnısında müğənninin Xəzərə bağlılığını, hətta ölümündən sonra belə, dənizsiz yaşaya bilməyəcəyini bildirən kəlmələr var. Dahilər qismətlərini əvvəlcədən bilirlər. Məşhur fransız yazıçısı Antuan De Sent Ekzüperinin “Cənub poçt təyyarəsi” əsərində döyüşə gedən təyyarəçi evə dönməyi və sevgilisinin ağuşuna atılıb eşq dənizində əcəlinədək üzməyi arzulayır. Lakin sonuncu döyüş tapşırığında yanacağı tükənəndə artıq geri dönə bilməyəcəyini dərk edən qəhrəman sükanı sinəsinə çəkərək təyyarəni kainatın dərinliklərinə - ulduzlara sarı döndərir. Antuan başına gələnləri bilirmiş kimi qəhrəmanı haqqında yazdığı səhnəni bir müddət sonra özü yaşayır. Sonuncu döyüşdən Ekzüperi geri qayıtmır. Hərbi aeroportda onun yolunu gözləyənlər saata baxır və başa düşürlər ki, yanacağı göydə qurtaran yazıçı geri dönməyəcək. Hamı qərargahda ayağa durur, pilotkalarını çıxarıb təzim edir. Sanki Müslüm də beləcə Bakısız, Xəzərsiz yaşamağın mümkün olmadığını, necə olursa-olsun heç olmasa bir gəmiyə dönüb uşaqlıqdan sevdiyi dənizin sularına əbədi atılmaq eşqi ilə yaşayırmış. Müslüm oxuyurdu: “Ürək bir dost kimi sinədən mahnıyla qopub dənizi qarşılayır”. İndi bu ürək bir gəmiyə çevrildi. Və bu gəmi Neft Daşlarına sarı üzəcək. Gecə göylərdən baxanda Xəzərin sinəsinə səpilən ulduzlara bənzəyən Neft Daşlarına sarı üzən gəmi də Müslümün ürəyi, ruhunun bir parçası kimi onu qucaqlayıb öpən dalğalara sevinəcək. Və “Müslüm” Xəzərdə üzdükcə köksündən qopan

***“... dəniz***
***Uşaq nağıllarına***
***Mavi ovuclarında***
***Gəmiləri daşıyırlar”*** - misraları çılğın dəniz sevdasıyla sulara qovuşacaq, Xəzərə qarışacaq.

**B. İMANQULİYEV**

# Yeni Müharibə Hesabatında Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktı bir daha təsdiqlənib

**Cenevrə Beynəlxalq Münasibətlər və İnkişaf İnstitutunda 2014-cü ilin dekabrında təqdimatı keçirilmiş yeni Müharibə Hesabatı geniş ictimaiyyət üçün açıqlanıb.**

Bu barədə AzərTAc-a Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyindən məlumat verilib. Məlumatda bildirilir ki, hesabat Cenevrə Beynəlxalq Münasibətlər və İnkişaf İnstitutu və Cenevrə Universitetinin birgə mərkəzi olan Beynəlxalq Humanitar Hüquq və İnsan Hüquqları üzrə Cenevrə Akademiyası tərəfindən hazırlanıb və “Oxford” Universitetinin nəşriyyat evində çap edilib.




Sənəddə 2013-cü il ərzində 26 dövlətin ərazisində baş vermiş və davam etməkdə olan 39 silahlı münaqişə barəsində məlumat verilir. Hesabat dövlətlər, BMT və onun ixtisaslaşmış təşkilatları, beynəlxalq qeyri-hökumət təşkilatları və akademik dairələr üçün nəzərdə tutulur və dünyadakı mövcud münaqişələrlə bağlı arayış və istinad mənbəyi qismində istifadə edilməsi məqsədi daşıyır.

Hesabatda Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunması və hərbi təcavüzün davam etməsi faktı birmənalı şəkildə yenidən təsdiqlənir, münaqişə tərəflərinin yalnız Ermənistan və Azərbaycan olduğu vurğulanır. Hesabatın 44-48-ci səhifələrində Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin işğal edildiyi bildirilir, işğalçı dövlət olaraq Ermənistanın öhdəlikləri diqqətə çatdırılır. Sənədin sözügedən münaqişəyə həsr olunmuş hissəsi “Ermənistan tərəfindən Azərbaycanın hərbi işğalı” adlanır.

2007-ci ildə Cenevrə Universitetinin hüquq fakültəsi və Beynəlxalq və İnkişaf Araşdırmaları üzrə Məzun İnstitutu tərəfindən təsis edilmiş Cenevrə Akademiyası silahlı münaqişə vəziyyətlərinə dair beynəlxalq hüququn müvafiq sahələri ilə bağlı elmi tədqiqat işlərinin aparılması, təlim kursları və mütəxəssislərin görüşlərinin keçirilməsi sahəsində fəaliyyət göstərir. Akademiyanın fəaliyyəti İsveçrənin Lozan Universiteti, Beynəlxalq Qızıl Xaç Komitəsi, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı və İsveçrənin Xarici İşlər üzrə Federal Departamenti tərəfindən dəstəklənir. Xatırladaq ki, Müharibə Hesabatının 2012-ci ili əhatə edən ilk nəşri 2013-cü ilin dekabrında nəşr olunmuşdu.

# *İlk Avropa Oyunlarının loqotipi "Atletiko Madrid" futbolçularının formalarında əks olunacaq*

**Bakı 2015 Avropa Oyunları bu gün İspaniyanın futbol çempionları "Atletiko" (Madrid) komandasının formalarında, onların 2014-15 mövsümünün sonunadək UEFA Çempionlar Liqasının və İspaniyanın futbol çempionatı olan La Liqanın oyunlarında çıxışı zamanı ilk Avropa Oyunlarının loqotipinin əks olunması haqqında müqavilə imzalandığını elan etdi.**




Trend xəbər verir ki, "Atletiko"nun hal-hazırkı turizm mövzulu Azərbaycan "Odlar yurdu" sponsor loqotipi Vinçente Kalderon stadionunda keçiriləcək "Real"a (Madrid) qarşı oyunda yenilənəcək.

"Atletiko" komandasının baş icraçı direktoru Migel Anxel Gil Marin bildirib: “Oyunçularımız bu gündən etibarən mövsümün sonunadək böyük qürur hissi ilə Bakı 2015 loqotipli formalarını geyinəcəklər. İlk Avropa Oyunları qitənin idman sahəsindəki inkişafında irəliyə atılan böyük bir addımdır və biz İspaniya və Avropanın lider futbol klublarından biri olaraq bu Oyunları təbliğ etməkdən olduqca məmnunuq”.

"Altetiko" hal-hazırda ötən mövsüm La Liqadakı çempionluq uğurunu təkrarlamaq niyyətindədir və həmçinin futbol dünyasının ən nüfuzlu klub yarışı olan UEFA Çempionlar Liqasının ələmə mərhələsindədir. Klub İspaniyada çox populyardır və onların televiziyada yayımlanan matçları adətən Avropa və bütövlükdə dünyada milyonlarla tamaşaçı tərəfindən izlənilir.

Bakı 2015-in kommersiya direktoru Çarli Viceratna bildirib: "Atletiko" İspaniyanın La Liqa çempionu və dünyanın ən tanınmış futbol klublarından biridir. Bakı 2015 loqotipinin onların formalarında əks olunması Avropa Oyunları haqqında məlumatlılığın, brendimizin dəyərinin və yaratdığımız təkanın artırılmasının innova-

# QOVANI ÇOXALDIQCA, QAÇANI ARTAN DÜNYA...

**BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının son hesabatına görə, dünyanın hər yerində qaçqın və məcburi köçkünlərin sayı artır. Təkcə keçən ilin birinci yarısında 5,5 milyon insan öz evini tərk etmək məcburiyyətində qalıb və bununla da ev-eşiyindən didərgin düşən qaçqın və məcburi köçkünlərin sayı təxminən 51,2 milyon nəfərə çatıb.**

Sənəddə qeyd edilir ki, dünyada qaçqınların sayı hər gün 23 min nəfər artır. Bu gün isə bütün dünyada olan qaçqınların 23 faizi Suriyanın payına düşür. 7 milyon suriyalı ev-eşiyindən didərgindir. Halbuki son 30 ildə qaçqınların sayına görə, Əfqanıstan ilk sıranı tuturdu. Hazırda dünyada 2,7 milyon əfqan qaçqın var. Siyahıda Suriya və Əfqanıstandan sonrakı yerləri



Somali (təxminən 1,2 milyon nəfər), Sudan (636 min nəfər), Konqo Demokratik Respublikası (500 min nəfər), İraq (410 min nəfər), eləcə də Cənubi Sudan və Myanmar tutur.

Qaçqınların sayı İkinci Dünya müharibəsindən sonra ilk dəfə 50 milyon həddini keçib. Bu rəqəmin artmasına daha çox Suriya, Mərkəzi Afrika Respublikası və Cənubi Sudanda baş verən silahlı toqquşmalar səbəb olub. Sənəddə o da qeyd edilir ki, həmin rəqəmin 16,7 milyonu başqa ölkəyə qaçan qaçqınlar, 33,3 milyonu öz ölkəsi daxilində məcburi köçkünlər və 1,2 milyonu müəyyən səbəblərdən başqa dövlətlərdə sığınacaq axtaranlardır.

BMT-nin Ali Komissarlığı 13 milyon qaçqını və 26 milyon məcburi köçkünü öz himayəsində saxlayır. Qaçqınların 42 faizi yaşı 18-dən aşağı uşaqlar və yeniyetmələrdir.



### MÜNASİBƏT

Bəs qaçqınlar hara gedir və necə münasibət görürlər?

2014-cü ilin birinci yarısında ən çox qaçqın qəbul etmiş ölkə Pakistandır. Bu ölkədə 1,6 milyon əfqan qaçqını məskunlaşıb. Hazırda Livanda 1,5 milyon, İranda 1 milyona yaxın, İordaniyada 1,5 milyon, Türkiyədə 1,5 milyon nəfər və sair sığınacaq tapıb. Bu yerdə yada salaq ki, Ermənistanın işğalçı siyasəti nəticəsində 1 milyon azərbaycanlı da öz torpaqlarından qovulub və Azərbaycanın müxtəlif bölgələrində məskunlaşıb.

Qaçqınların 86 faizi inkişaf etməkdə olan ölkələrdə yerləşdirilib. Avropa İttifaqına daxil olan və yüksək inkişaf etmiş ölkələrin ərazisində isə cəmi 30,5 min suriyalı qaçqın yerləşdirilib. Ümumiyyətlə, Avropa İttifaqı ölkələrində 1,8 milyon qaçqın, məcburi köçkün və sığınacaq almış miqrantlar yaşayır ki, onların da çoxu Almaniyanın ərazisində məskunlaşıb. Ancaq qaçqınlara münasibət hər yerdə Almaniyadakı kimi deyil. Məsələn, hazırda ən çox qaçqını olan Suriyadır və bu ölkəyə özünü daha doğma göstərmək üçün böyük dövlətlər yarışa giriblər. Amma suriyalı qaçqınları cəmi 5 həmsərhəd ölkə qəbul edir və bütünlüklə qayğılarına qalırlar. Bunlar Türkiyə, İordaniya, Livan, İran və Pakistandır. Eləcə də Myanmarın Tailandla sərhədlərində yerləşən qaçqın düşərgəsində Karen xalqına mənsub 120 min insan 20 ildir ki, BMT-nin himayəsində yaşamaqdadır. Halbuki,



onlar Tailandda sərbəst yaşaya bilərdilər.

Əslində 51,2 milyon heç də kiçik say deyil və əgər bu qədər insan bir dövlətdə cəmləşsəydi, həmin ölkə əhalisinin sayına görə, dünyada 26-cı yerdə olardı.

### MACƏRA AXTARANLAR

Ümumiyyətlə, tarix boyunca hər bir dövlət xaricdən qaçqın qəbul edib və hətta elə ölkələr var ki, bu gün onun əhalisinin önəmli hissəsi məhz əslən miqrantların nəslinin davamçılarıdır. Məsələn, hazırda dünyanın ən qüdrətli dövləti ABŞ-ın əhalisinin 14,3 faizi bir vaxtlar əsasən ingilislərin, irlandların, eləcə də onların işlətmək məqsədilə apardıqları Afrika mənşəli qaradərililərin nəslinin davamçılarıdır. Bu isə, 46 milyon vətəndaş deməkdir.

Siyahıda ikinci yeri Rusiya tutur. Rusiyanın əhalisinin 7,7 faizi, yəni 11 milyon nəfərdən çoxu miqrantların nəslidir. Almaniyada isə 10 milyon miqrant kökənli vətəndaş yaşayır ki, bu da almaniyalıların 12 faizi deməkdir.

Onu da qeyd edək ki, qaçqın və köçkünlərlə yanaşı, bəzən macəra və daha yaxşı yaşayış yeri tapmaq üçün də köç edilir. Məsələn, ABŞ-a gedənlərin məqsədi əsasən bu olub. Bu silsilədən bir sıra ölkələrin adlarını qeyd edə bilərik ki, onların vətəndaşlıq hüququ olan əhalisinin böyük hissəsi ora məhz daha yaxşı yaşamaq məqsədilə gəlib. Məsələn, İsveçrənin əhalisinin 29 faizi və ya 2,4 milyon nəfəri, Niderlandın əhalisinin 12 faizi və ya 2 milyon nəfəri, Sinqapurun əhalisinin 43 faizi və ya 2,3 milyon nəfəri, İsveçin əhalisinin 16 faizi və ya 1,2 milyon nəfərə qədəri, Norveçin əhalisinin 14 faizi və ya 700 min nəfəri, Lüksemburqun əhalisinin 44 faizi və ya 230 min nəfəri, Andorranın əhalisinin 57 faizi, Monakonun əhalisinin 65 faizi və ya 25 min nəfəri, Lixtenşteynin əhalisinin 33 faizdən çoxu və ya 13 min nəfəri, San Marinonun əhalisinin 16 faizi və ya 5 min nəfəri, Bruneyin əhalisinin 50 faizi və ya 210 min nəfəri, Vatikanın 800 nəfərlik əhalisinin hamısı və sair... Hətta ekzotik gözəlliyə malik Maldiv, Guam, Virciniya və sair ada dövlətlərin əhalisinin böyük hissəsinin xaricdən gələn insanlar olduğunu nəzərə alsaq, dediklərimizi isbatlamış olarıq.

***(Davamı var)***

## BELƏ-BELƏ İŞLƏR

### HƏRƏ BİR ŞEY ÜÇÜN GƏLİR

Bu dünyaya deyəsən hərə bir şey üçün gəlir. Bəzilərinin iştahasını görəndə, adama elə gəlir ki, dünyaya məhz yemək üçün gəliblər. Həyatın ləzzətini yalnız yeyib-içməkdə görənlərin mədələri, maşallah, daşı da əridər. Nə deyirik ki?! Nuş olsun!

İşləməklə arası olmayanlar çoxdur. Beləələri özlərinü işə verməmək üçün min bəhanə uydururlar, hansı dona desən, girirlər, təki əllərini ağdan-qaraya vurmasınlar.

Bəzilərinin işi-peşəsi yatmaqdır. Hardan tapdıqlarını deyə bilmərəm, amma fil qulağında yatanlar da var. Onların yuxularına haram qatmaq olmaz.

Bir qrup adamlar da var ki... Bax, belələrinin yalnız çənələri işləyir. Yalan danışmaqda, şər atmaqda, böhtan söyləməkdə mahirdirlər. Birinin üzünün güldüyünü görəndə, elə bil başlarına daş düşür. Başqalarının işləri yaxşı gedəndə yuxuları qaçır. Paxıllıq, həsəd, kin onları içindən yesə də, əməllərindən, xasiyyətlərindən əl çəkmirlər.

### ZƏMANƏ ADAMI

Tanışlardan ən çox eşitdiyim iradlardan biri də budur ki, mən zəmanə adamı deyiləm və onların fikrincə, heç zaman da olmayacağam. Dediklərindən belə məlum olur ki, mənim bütün problemlərimin səbəbi zəmanə adamı olmamağımda və ola bilməyəcəyimdədir.

Düzü, zəmanə adamı olanlara baxıram və hər baxanda da şükür edirəm ki, nə yaxşı, zəmanə adamı deyiləm. Zəmanə adamı olmaq adamlığı unutmaqdırsa, mənə sadəcə, elə adam olmaq kifayətdir. Zəmanə adamı olmasam da.

### RUHDAN DÜŞMƏYƏ DƏYMƏZ

Bir dostum var, yaxşı adamdır. Yaxşı adam olmasına baxmayaraq, həmişə pisliklə üzləşir və təbii ki, bundan üzülür.

Məndən məsləhət istəyəndə, ona Fridrix Nitşenin bir deyimini xatırladıram: "Yaxşı insan olduğun üçün insanların səninlə yaxşı davranmasını gözləmək, vegeterian olana öküzün hücum etməyəcəyini düşünmək qədər səfeh fikirdir."

Atalarımızın da, hikmətinə görə bu kəlamdan geri qalmayan bir ifadəsi var: "İgidin başı qalda gərək". Sözümün canı odur ki, yaxşı adamlar heç yerdə naqis adamların pisliklərindən sığortalanmamışdır və pis adamlar da yalnız və yalnız yaxşı adamlara pislik edirlər. Yəqin it-itin ayağını basmadığı üçün belədir. Ruhdan düşməyə dəyməz. Bir də, pislər pisliklərindən əl çəkmirlərsə, yaxşılar yaxşılıq etməkdən niyə əl çəkməlidirlər?

### XOŞBƏXT OLUN

Paulo Koelo deyib: "Bir uşağın bir yetkinə hər zaman öyrədə biləcəyi üç şey var. Səbəbsiz yerə xoşbəxt olmaq, hər zaman məşğul ola biləcək bir şey tapmaq və əldə etmək istədiyi şeyə var gücü ilə çalışmaq".

Gözəl sözlərdir! Və gözəl olduğu qədər də... Deyirəm bəlkə biz də uşaqlardan bu 3 şeyi öyrənək?! Səbəbsiz də (səbəb nə qədər istəsən tapmaq olar) xoşbəxt olmağa çalışaq. Ömür onsuz da çox qısadır.

*Rasif TAHİROV*

## XƏZƏRDƏKİ HƏRBİ DONANMAYA ÇOXFUNKSİYALI KATERLƏR VERİLƏCƏK

**Rusiya bu il Xəzər donanmasının tərkibinə 4 ədəd 233770 layihəli çoxfunksiyalı hərbi kater daxil edəcək.**

APA-nın Rusiya Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, yaxın vaxtlarda katerlərin sınaqları başlanacaq. Katerlərin cari ilin birinci yarısında istifadəyə qəbulu gözlənilir.

Katerlər qurulmuş avadanlıqlardan asılı olaraq dalğıc, axtarış-xilasetmə, yanğınsöndürmə və ya ekoloji kater kimi müxtəlif təyinatlar üzrə istifadə oluna bilər. Katerin sürəti 10 mil, üzmə uzaqlığı 200 mildir.

Qeyd edək ki, Rusiya HDQ-nin Xəzər donanması üçün Həştərxandakı gəmiqayırma zavodunda ümumilikdə 23370 layihəli dörd kater inşa olunmuşdur. Birinci çoxfunksiyalı modulyar katerin sınaqları 2014-cü ilin dekabr ayında yekunlaşmışdır və onun yaxın vaxtlarda silahlanmaya qəbulu gözlənilir.

## YEDDİ İLDİR GƏMİDƏ YAŞAYIR

**Amerikalı qadın Li Voçtstetter 7 ildir səyahət gəmisində yaşayır. Sən demə, əri öləndə ona "dəniz səyahətini heç vaxt dayandırmamağı" vəsiyyət edibmiş. Əri dünyasını dəyişəndən sonra qadın özünün Floridadakı evini satır və daimi yaşayış yerini qurudan sular qoynuna keçirir.**

Ötən 7 ildə qadın 100-dən çox kruizdə, o cümlədən 15 dünya səyahətində olub. Sular qoynunda yaşamaq ildə ona 160 min dollara başa gəlir. 86 yaşlı pensiyaçı qadın bildirib ki, Asiya ölkələri daha çox xoşuna gəlir, çünki onların həyat tərzi ABŞ-dakından hədsiz dərəcədə fərqlidir.

Gəminin dayandığı limanlarda isə heç də həmişə sahilə çıxmır, çünki artıq həmin şəhərlərin çoxunda olub. Amma, İstanbula gələndə "Qrənd-Bazara"a (şəhərdəki ən böyük bazar) getməyi çox xoşlayır.

"Orada o qədər də baha olmayan çox gözəl geyimlər tapmaq olar. Kayutumda yer dar olduğuna görə, özümü hər dəfə nə isə almaqdan güclə saxlayıram," – qadın vurğulayıb.

Voçtstetter bildirib ki, ailəsi üçün darıxır və buna görə tez-tez internet vasitəsilə üç oğlu və nəvələri ilə ünsiyyətdə olur.

## QADINLAR YALNIZ ÇOX UZAQDAN SEYR EDƏ BİLƏRLƏR

**Şərqi Yunanıstanda yerləşən Afon dağı, həmçinin "Müqəddəs dağ" adı ilə tanınır. Bundan əlavə, Afon dağı Yunanıstanın Müqəddəs Dağ dövlətinin monarx muxtariyyəti inzibati sisteminə daxildir.**

Afon dağının kilsə adət-ənənələri isə eramızın 800-cü ilində Bizans dövründən qalır. Hazırda Afon dağında 20 kilsə mövcuddur, orada Rusiya, Bosniya, Serbiya və Bolqarıstandan olan 2000 keşiş yaşayır. Bu keşişlər demək olar ki, dünyadan təcrid olunublar. "Müqəddəs Dağ" Avropa qitəsində yerləşsə də, müstəqil dövlət kimi fəaliyyət göstərir. Ona görə, kimsə buraya icazəsiz səyahət edə bilməz. Bizans dövründən bu günədək qalan adətlərdən biri də müqəddəs torpağa qadınların ayaq basmasına qadağa qoyulmasıdır.

Artıq min ildən çoxdur ki, bu yerlərə qadın ayağı dəyməyib. Torpağa dişi inək, it və keçi də daxil ola bilməz. Təkcə dişi quş və həşəratlara "güzəşt" var. Özünü apara bilən sakit və dindar kişilər Afon dağına gələ bilərlər. Qadınlar isə torpağa uzaq məsafədən və ya dağın zirvəsindən tamaşa etməklə kifayətlənirlər.

Ruhani şəxslərin dediyinə görə, qadınlar olmadan rahatlıqla dua edə bilirlər. Qadınların cəmiyyətin dinamikasını kəskin dəyişə və onların mənəvi ruhunu məhv edə biləcəklərini düşünürlər.

Maraqlıdır ki, Afon keşişləri üçün qəbul edilən yeganə qadın Müqəddəs Məryəmdir. Avropa Parlamentinin 2003-cü il Qətnaməsində isə bildirilib ki, Afon dağı cinslər arasındakı bərabərliyi və insanların sərbəst hərəkət hüququnu pozur.

## QAYIQ QƏZAYA UĞRAYIB

**Yəmən sahillərində qanunsuz mühacirləri daşıyan qayığın qəzaya uğraması nəticəsində 35 nəfər itkin düşüb.**

APA-nın RİA Novosti agentliyinə istinadən verdiyi xəbərə görə, xilasedicilər 13 nəfərin həyatını xilas ediblər.

Digərlərinin tapılması istiqamətində axtarışlar davam etdirilib.

İlkin məlumata əsasən, qəzaya səbəb qeyri-sabit hava şəraiti olub.

## Dənizlərə gözəllik verən gəmilərimiz







## BALIQÇININ QİSASI

**Uqandadan olan Mubalak Batambuze hamilə arvadını və daha 6 nəfər yerli sakini yeyən nəhəng timsahdan qisasını ala bilib. O, timsahı izləyərək istəyinə nail olub.**

Yerli hakim dairələrin verdiyi məlumata görə, öldürülmüş timsahın uzunluğu 7,5 metr, çəkisi isə bir tona yaxın olub.

Balıqçı Batambuzenin arvadı Demeteriya Nabuire Uqandanın şərq sahilində yerləşən Kioqa gölünün sahilində timsahın qurbanına çevrilən vaxt hamiləliyinin səkkizinci ayında olub. Hadisə baş verdiyi yerdə qadının ayaqqabıları və mobil telefonu aşkar edilib.

Mubalak Batambuze timsahı izləyib və onu harpunla (böyük dəniz heyvanlarını ovlamaq üçün nizə) öldürüb. Timsahın qarnında insan sümükləri və paltar aşkar edilib. Mütəxəssislərin sözlərinə görə, hamilə qadını məhz həmin timsah yeyib.

İlham MƏMMƏDOV

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Залоговое право — Girov hüququ
### LIEN

Право судовладельца задержать выдачу груза вплоть до уплаты получателем, фрахтователем или отправителем причитающихся сумм перевозчику. Применение залогового права предусматривается во всех чартерах, как правило, в обеспечение требований, основанных на расчетах по фрахту, мертвому фрахту, демереджу, а также аварийному взносу по спасанию и общей аварии.

Yükalan, fraxtedən və ya yükgöndərən tərəfindən daşıyıcıya çatacaq məbləğ ödənilənə kimi gəmi sahibinin yükün verilməsini ləngitmək hüququ. Girov hüququnun tətbiqi bütün çarterlərdə, bir qayda olaraq, fraxt, istifadəsiz fraxt, demerec, habelə xilasetməyə və ümumi qəzaya görə qəza haqqı üzrə hesablaşmalara əsaslanan tələblərin təmin edilməsində nəzərdə tutulur.

### Затонувшее имущество — Batmış əmlak
### SINKING PROPERTY

Включает суда, самолеты и их принадлежности, оборудование, обломки судов и самолетов, грузы, средства навигационной обстановки и др. предметы, опустившиеся на дно либо выброшенные на мелководье, банки, скалы и т. п. Правовой режим затонувшего имущества определяется национальным законодательством. Для подъема этого имущества, затонувшего во внутренних или территориальных водах, требуется получение разрешения компетентных властей. Имущество, затонувшее в открытом море, может быть поднято только его владельцем или с его разрешения.

Suyun dibinə çökmüş və ya dayazlığa, az dərinliyə (bankaya), qayalara və s. atılmış gəmiləri, təyyarələri və onların ləvazimatını, avadanlığını, qırıntılarını, habelə yükləri, naviqasiya şəraiti vasitələrini və s. əşyaları əhatə edir. Batmış əmlakın hüquqi rejimi milli qanunvericiliklə müəyyənləşdirilir. Daxili sularda və ya ərazi sularında batmış bu əmlakın sudan qaldırılması üçün səlahiyyətli hakimiyyət orqanlarından icazə almaq tələb olunur. Açıq dənizdə batmış əmlak yalnız onun sahibi tərəfindən və ya onun icazəsi ilə sudan qaldırıla bilər.

### Зоны безопасности — Təhlükəsizlik zonaları
### SAFE AREA

Зоны с особым режимом, устанавливаемые вокруг искусственных сооружений и установок, размещаемых на континентальном шельфе и предназначенных для разведки и разработки его естественных ресурсов. Конвенция ООН по морскому праву предусматривает право прибрежного государства устанавливать зоны безопасности вокруг искусственных островов, установок и сооружений, предназначенных для исследования и разработки естественных ресурсов не только континентального шельфа, но и исключительной экономической зоны. Зоны безопасности могут простираться от таких сооружений и установок на расстояние 500 м, считая от каждой точки наружного края. Суда всех национальностей обязаны соблюдать зоны безопасности. Согласно Конвенции зона безопасности разумной ширины, не превышающей 500 м, может устанавливаться также вокруг научно-исследовательских установок, выставляемых в любом районе морской среды, в том числе и за пределами 200 морских миль от берега. Все государства обязаны обеспечивать соблюдение их судами таких зон безопасности.

Kontinental şelfdə yerləşdirilən və onun təbii ehtiyatlarının kəşfi və çıxarılması üçün nəzərdə tutulan süni qurğular və mexanizmlər ətrafında təyin edilən xüsusi rejimli zona. Dəniz hüququ haqqında BMT Konvensiyası sahilyanı dövlətin yalnız kontinental şelfin deyil, həm də müstəsna iqtisadi zonanın təbii ehtiyatlarının tədqiqatı və işlənməsi üçün ayrılmış süni adaların, mexanizm və qurğuların ətrafında təhlükəsizlik zonasını təyin etmək hüququnu nəzərdə tutur. Təhlükəsizlik zonası belə qurğu və mexanizmlərin xarici tərəfinin hər bir nöqtəsindən 500 metr məsafədə ərazini əhatə edə bilər. Bütün millətlərin gəmiləri təhlükəsizlik zonasının tələblərinə riayət etməlidir. Konvensiyaya əsasən 500 metrdən çox olmayan ağlabatan enə malik təhlükəsizlik zonası eyni zamanda dəniz mühitinin istənilən rayonunda, o cümlədən, sahildən 200 dəniz mili hüdudunu keçməklə qoyulan elmi-tədqiqat qurğuları ətrafında da təyin edilə bilər. Bütün dövlətlər gəmilərinin belə təhlükəsizlik zonalarının tələblərini gözləməsini təmin etməlidirlər.

### И

### Иерусалимские ассизы — Yerusəlim assizləri
### JERUSALIM ASSISES

Свод законов Иерусалимского королевства. Применялись также в Кипрском королевстве и др. государствах, созданных крестоносцами на Ближнем Востоке. Содержащиеся в Иерусалимских ассизах нормы морского права не только подверглись влиянию обычаев, сложившихся в восточной части Средиземноморья, но и сами оказали влияние на их дальнейшее развитие. Применение норм и правил, содержавшихся в Иерусалимских ассизах, к спорам, связанным с морской торговлей и мореплаванием, осуществлялось морскими магис- тратами и консулами, назначавшимися в торговые порты Марсель, Генуя, Венеция и др.

Yerusəlim krallığının qanunlar külliyyatı. Kipr krallığında və səlibçilər tərəfindən Yaxın Şərqdə qurulmuş digər dövlətlərdə də tətbiq edilmişdir. Yerusəlim assizlərindəki dəniz hüququ normaları nəinki Aralıq dənizinin şərq hissəsində formalaşmış adətlərin təsirinə məruz qalmışdır, hətta özləri də həmin adətlərin gələcək inkişafına təsir göstərmişdir. Yerusəlim assizlərindəki norma və qaydaların dəniz ticarəti və dəniz üzgüçülüyü ilə bağlı mübahisələrə tətbiqi Marselin, Genuyanın, Venetsiyanın və başqa ticarət limanlarına təyin olunmuş dəniz magistratları və konsulları tərəfindən həyata keçirilmişdir.

### Извещения мореплавателям — Dənizçilərə məlumat
### NOTICE TO MARINERS

Это специальный бюллетень, информирующий мореплавателей об изменении навигационной обстановки на морях и океанах. Издаются периодически организациями прибрежных государств, ведающими обеспечением безопасности мореплавания. В течение календарного года последовательно нумеруются.

Bu, dənizçiləri okeanlarda və dənizlərdə naviqasiya şəraitində baş verən dəyişiklik barədə məlumatlandırmaq üçün xüsusi bülletendir. Sahilyanı dövlətlərin dəniz üzgüçülüyü təhlükəsizliyini təmin edən təşkilatları tərəfindən dövri nəşr edilir. Təqvim ili ərzində ardıcıllıqla nömrələnir.

### Изобата — İzobat
### ISOBATH

Линия, соединяющая на карте точки с равными глубинами морского дна. Применяется в качестве разновидности дистанционного критерия определения внешнего предела континентального шельфа. По Конвенции о континентальном шельфе в качестве одного из критериев для определения внешней границы шельфа была принята 200-метровая изобата. В Конвенции ООН по морскому праву таким критерием наряду с расстоянием в 350 миль от исходных линий, от которых отмеряется ширина территориального моря, принято расстояние не далее 100 миль от 2500-метровой изобаты, которая представляет собой линию, соединяющую глубины в 2500 м.

Xəritədə dəniz dibinin bərabər dərinliklərində nöqtələri birləşdirən xətt. Kontinental şelfin xarici hüdudunun müəyyənləşdirilməsinin distansiya meyarının növmüxtəlifliyi kimi tətbiq edilir. Kontinental şelf haqqında Konvensiyaya görə selfin xarici sərhədinin müəyyənləşdirilməsi üçün 200 metrlik izobat meyar kimi qəbul edilmişdir. Dəniz hüququ haqqında BMT Konvensiyasında belə meyar kimi ərazi dənizinin eninin ölçüldüyü çıxış xətlərindən 350 millik məsafə ilə yanaşı, 2500 metr dərinlikləri birləşdirən xətdən ibarət 2500 metrlik izobatdan 100 mildən uzaq olmayan məsafə qəbul edilmişdir.

### Иммунитет государственных морских торговых судов — Dövlət dəniz ticarət gəmilərinin toxunulmazlıq hüququ
### IMMUNITY OF STATE SEA COMMERCIAL VESSELS

Состоит в недопустимости предъявления к государственным морским торговым судам исков в иностранных судебных учреждениях, а также применения принудительных мер без согласия государства флага судна. И. г. м. т.е. основан на принципе уважения государственного суверенитета и вытекающем из него принципе иммунитета - общепризнанного принципа международного права, согласно которому в силу суверенного равенства государств ни одно государство не может осуществлять властных полномочий в отношении другого государства, его собственности без согласия последнего, и ни одно государство неподсудно суду другого государства. В судебной практике многих развитых государств принцип абсолютного иммунитета не соблюдается на том основании, что эти государственные торговые суда выполняют коммерческие функции. По мнению этих государств принцип абсолютного иммунитета может быть применим лишь к тем государственным морским судам, которые не заняты коммерческой деятельностью. Практике решения проблемы иммунитета государственных торговых судов известно заключение двусторонних и многосторонних договоров, в соответствии с которыми стороны обязуются воздерживаться от принятия принудительных мер в отношении таких судов. Общепризнан и никем не оспаривается содержащийся в Конвенции ООН по морскому праву и других действующих нормах Международного права принцип иммунитета военных кораблей и других государственных судов, эксплуатируемых в некоммерческих целях.

Bu, dövlət dəniz ticarət gəmilərinə xarici ölkələrin məhkəmə müəssisələrində iddialar irəli sürülməsinin, habelə gəmi bayrağının məxsus olduğu dövlətin razılığı olmadan məcburi tədbirlərin tətbiqinin yol verilməzliyindən ibarətdir. Dövlət dəniz ticarət gəmilərinin toxunulmazlıq hüququ (imuniteti) dövlət suverenliyinə və ondan irəli gələn toxunulmazlıq hüququ prinsipinə (beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsipinə) əsaslanır. Həmin prinsipə əsasən dövlətlər suveren bərabərliyə malik olduqlarından, heç bir dövlət digər dövlətə axırıncının razılığı olmadan, onun mülkiyyətinə münasibətdə hakimiyyət səlahiyyətlərini həyata keçirə bilməz və heç bir dövlət digər dövlətin məhkəməsi tərəfindən məhkəmə məsuliyyətinə cəlb edilə bilməz. Bir çox inkişaf etmiş dövlətlərin məhkəmə praktikasında mütləq toxunulmazlıq hüququ prinsipinə riayət edilmir və bu zaman əsas kimi dövlət dəniz ticarət gəmilərinin kommersiya funksiyaları icra etməsi göstərilir. Həmin dövlətlərin rəyinə görə mütləq toxunulmazlıq hüququ prinsipi yalnız kommersiya fəaliyyəti ilə məşğul olmayan dövlət dəniz gəmilərinə tətbiq edilə bilər. Dövlət ticarət gəmilərinin toxunulmazlıq hüququ probleminin həlli təcrübəsində ikitərəfli və çoxtərəfli müqavilələrin bağlanılması geniş yayılmışdır ki, həmin müqavilələrə uyğun olaraq tərəflər belə gəmilərə münasibətdə məcburi tədbirlərin görülməsindən imtina etməyi öhdələrinə götürürlər. Dəniz hüququ haqqında BMT Konvensiyasında və Beynəlxalq hüququn digər qüvvədə olan normalarında qeyri-kommersiya məqsədləri ilə istismar olunan hərbi gəmilərin və digər dövlət gəmilərinin toxunulmazlıq hüququ prinsipi hamı tərəfindən qəbul edilmişdir və heç kimdə mübahisə doğurmur.

*(Davamı var)*



## QIZCIĞAZIN AYAQLARINI GƏMİRİBLƏR

**Nənəsinin evinə tətilə yollanmış 6 yaşlı qız balıqlara qurban olub. Nənəsi ilə birlikdə kanoedə üzərkən qəflətən qayıq çevrilib və qız çaya düşüb. Və dərhal da yırtıcı piranya balıqlarının hücumuna məruz qalıb. Nənəsi qızcığazı xilas edəndə isə artıq gec olub. Yırtıcı balıqlar qızın ayaqlarını gəmirmişdilər.**

Milli.Az El Mundoya istinadən bildirir ki, hadisə Braziliyanın Monte-Aleqri bölgəsindəki Rio-Maikuru şəhərinin yaxınlığında baş verib. Qız təcili xəstəxanaya şatdırılsa da, həkimlər onu ölümün cəngindən ala bilməyiblər.

“Nəvəmi tutmağa çalışdım. Amma qayıqdan çaya düşdü. Sahilə çıxarılanda isə ayaqları yox idi. Balıqlar onu gəmirmişdilər”, – nənə bildirib.



# YARIZARAFAT, YARIGERÇƏK

- Paxıllıq dünən vardı, bu gün var. Sabah da olacaq?
- İşıq gələn tərəfə getdiyimiz üçün arxamızca hürən çoxdur?
- Həyatda udmaq üçün mütləq oynamaq lazımdır?
- Yenə "Pıç-pıç" başlayıb?
- Mənə elə gəlir ki, 3 adamdansa, 3 adamın çörəyinə bais olduğu üçün 3 adamın işini görəni ixtisar etmək lazımdır.
- Cəzadan qaçmağın yeganə yolu cinayətə yol verməməkdir.
- Bir yerdə - hər ikisi səhifədə fəaliyyət göstərsə də, qələm və pozan həmişə ayrı-ayrı məqsədlərə xidmət edib.
- Hər kəs qatığın ağ olduğunu çox gözəl bilir. Nə fərqi? Gör nə qədər adam qatığa hələ də qara deyir...
- Özlərindən daha çox razılardan daha çox narazı olur.
- Göz həkiminin qoyduğu uzaqdangörmə diaqnozu ilə nə qədər uzağa getmək olar?
- Oyun, oynamaq üçündür. Amma bir çox məsələlərdə ümumiyyətlə oynamaq olmaz.
- Yalanla ən səmərəli mübarizə doğru danışmaqdır.
- "Mən satqın deyiləm, Kərbəlayı!" deyənlərin çoxunun sorağı niyə gündə bir tərəfdən gəlir?
- Bu həqiqətdir ki, bütün uğursuz işlərimiz son nəticədə düşmənlərimizi sevindirir. Belədirsə, düşmənlərimizi niyə çox, həm də tez-tez sevindiririk?
- Həqiqətin susduğu gün yalanın dili açılır.
- Gəmiçilikdə işləyirəm deyə, ancaq başqalarının yükünü daşımalıyam?
- Özü yıxılan ağlamaz? Ona görə külək əsən səmtə yıxılanların üzü həmişə gülür?
- Günü-günə satmaq biznes sayılsaydı, indi məndən böyük biznesmen yox idi.
- Hünər odur ki, içindəki düşməndən özünü qoruya biləsən.
- Adamı yola verməsələr, yol yaxşı şeydir.
- Onun sözünü buna, bunun sözünü ona çatdıranlara heç olmasa poçtalyonların maaşı qədər əmək haqqı vermək olmaz?
- Neçə il əvvəl yaşmışdım ki, ara qatmaqla məşğul olan 3 adamın adını çəkəcəyəm. İndi isə söz verirəm ki, ara qatmayan 3 adamın adını deyəcəyəm.
- Arşını qanunla ləğv etməsək, hələ çox adam çox şeyi öz arşını ilə ölçəcək.
- Yalanın arxasında gizlənən adam nə boyda olsa, görünür.
- İyirmi birinci əsrin ən böyük bəlası hər kəsin özünü çox ağıllı göstərmək istəyidir.
- Ermənilər heç bir parametrlərinə görə insanlığa yaxın deyillər.

*Rasif TAHİROV*



# İZAHLI "KONSERT"

***Gizli iş*** - Oynadım, güldüm, danışdım,
Nə bağ bildi, nə də bağban.

***

***Rəhm etmək*** - O tayda durma, yar,
Boynunu burma, yar.

***

***Pul*** - Qaçdım sənin dalınca mən, gördüm yoxsan.

***

***Yaltaq*** - Harda olsan gələrəm, təki sən səslə məni.

***

***Hörmət*** - Yeri, yeri, mən də gəlim dalınca.

***

***Dayı*** - Nə qədər mən sağam, fikir eləmə.

***

***Vəzifə*** - O mənim sevgilim, o mənim canım,
Onsuz üzüm gülməz, açılmaz alnım.

***

***Böhtan*** - Ömrümə siz dayaq oldunuz.

***

***Ehtiyac*** - Etmisən gündüzümü qara gecə gör necə sən.

***

***Siqaret*** - Canım oduna yandı, can demədin bir dəfə.

***

***Araq*** - Nə gəlib indiyədək başıma, səndən bilirəm.

***

***Yalan*** - Səni atdım, gözəlim, atmağa peşman deyiləm.

***

***Könülsüz dəvət*** - Həsri basma, dolan gəl.

***

***Sərvət*** - Ümidini üzmə gəl, təkcə sənsən pənahım.

***

***Rüşvət*** - Elə gəlsin, elə getsin,
Aralıqda söz olmasın.

***

***Möhür*** - Anam sənə qurban...

***

***Canıyananlıq*** - Pəncərədən daş gəlir.

***

***Təmizlik*** - Küçələrə su səpmişəm.

***

***Yanılmaq*** - Azadlıq verdi bizə
Lenin əziz babamız.

*Rasif TAHİROV*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI

aşağıda adları göstərilən kafedralar üzrə vakant olan vəzifələrin tutulması üçün müsabiqə

## ELAN EDİR:





**1. "Naviqasiya" kafedrası:**
0,5 ştat baş müəllim - 1 yer

**2. "Su nəqliyyatında daşımalar" kafedrası:**
baş müəllim - 1 yer

2. "**Riyaziyyat" kafedrası:**
baş müəllim - 1yer:
assistent - 2 yer

**3. "Humanitar fənlər" kafedrası:**
assistent - 1yer

**4. "Dillər" kafedrası:**
baş müəllim - 2 yer

Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə bu ünvana təqdim edilməlidir: Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 18.

Sənədlərin təqdim olunması elan dərc edildiyi tarixdən 1 ay müddətindədir.

**Əlaqə telefonu: 493-75-21; 493-36-44 daxili 229**


# MƏSLƏHƏT

Parasına bax, qızını al.

***

Ayağını puluna görə uzat.

***

Ərik sizdən, salam bizdən.

***

Nə qədər ki, sənə qulaq asan var, az danış.

***

Tələsəndə də cin atına minmə.

***

Yola gedə bilmədiyin adamla yol getməkdənsə, yeni yol çək.

***

Sabah peşman olmaq istəmirsənsə, bu gün peşmanlıq iş tutma.

***

Ən böyük qazanc hər işdə vaxt udmaqdır.

***

Uzaq qaç:
– Ağzı yırtıq olandan;
– Az bilib, çox deyəndən;
– Boyuna güvənəndən;
– Ev yıxmaqla özünə ev tikmək istəyəndən;
– Başqasının öpüləsi əlinə rişxənd edib, özünün tüpürüləsi üzünü qabağa verəndən;
– Cibini dostunun cibi ilə dəyişik salandan;
– Özündən böyüyə bəli, özündən kiçiyə dəli deyəndən;
– Kor həkimdən;
– Kar hakimdən;
– Lal vəkildən;
– Hər havaya züy tütandan;
– Paltarından çox üzü dəyişəndən;
– Ayağından çox dili büdrəyəndən;
– Həqiqətə göz yumandan;
– Külək kimi hər tərəfə əsəndən;
– Göründüyü kimi olmayandan.

*Rasif TAHİROV*


***BAŞ REDAKTOR***
**Rasif İman oğlu TAHİROV**

**ÜNVANIMIZ:**
**AZ 1003, Bakı şəhəri, Xanlar küçəsi, 22**
**TELEFONLARIMIZ**
**Baş redaktor (050) 670-33-76, redaktor müavini (050) 341-26-40**

***Qəzetin təsisçisi***
**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətidir**

**Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "OL" MMC-də çap olunmuşdur**

**Şəhadətnamə 271**
**Sayı 2000**
**Sifariş 19**